**Əsgərova Sevinc Vaqif qızı**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

# ÇEX TORPAQLARININ QIZIL DÖVRÜ - IV KARL HAKİMİYYƏTİ

***Açar sözlər:*** *IV Karl, Çexiya, Çex krallığı, Müqəddəs Roma imperiyası*
***Keywords:*** *Charles IV, Czech, Czech Kingdom, Holy Roman Empire*
***Ключевые слова:*** *Карл IV, Чехия, Чешское королевство, Священная Римская империя*

Orta əsrlərin sonuna yaxın, böyük coğrafi kəşflərdən sonra Avropa və digər ərazilərdə Çex torpaqları haqqında artıq müəyyən təsəvvürlər formalaşmışdı. Həmin dövrlərdə formalaşan fikirlər və təsəvvürlərə əsasən planetimizin mərkəzi - Avropa, Avropanın mərkəzi - Almaniya imperiyası, imperiyanın mərkəzi - Çexiya, Çexiyanın mərkəzi isə Praqa şəhəri hesab olunurdu. Məlum fikirlər əsasında xüsusi bir xəritə yaradılmışdı, hansında ki, Avropa özü müdrik bir qadın kimi təsvir olunmuşdu, qadının başı Priney yarımadası, uzun ətəyi Ural dağları, sağ əli isə İtaliya ilə göstərilmişdi. Bu xəritədə ən əhəmiyyətli və son dərəcə maraq doğuran məsələ onunla bağlı idi ki, Avropa xanımının ürəyi Çexiya olaraq təsvir olunmuşdu. Çexiya dövləti isə X əsrdə Qərb slavyanlarının yaratdığı ilk dövlət olmuşdu. Çexiya mühüm ticarət yollarının qovşağında yerləşirdi. Bu da dövlətin iqtisadi inkişafına əlverişli şərait yaradırdı (1).

Beləliklə, öz əhalisinin təsəvvüründə Çexiya dünyanın mərkəzi sayılırdı. Bu baxışlar XIV əsrdə yaranmağa başladı. Bu zaman ölkə Müqəddəs Roma imperiyasının *(Müqəddəs Roma imperiyası 962-ci ildə Alman kralı I Otto tərəfindən yaradılmışdı. Belə ki, I Otto həmin ildə Romanı işğal edərək özünü Roma imperatoru elan edir. Bununla da, Müqəddəs Roma imperiyasının əsası qoyulur)*, sonralar Almaniya imperiyasının, siyasi və mədəni mərkəzinə çevrilmişdi.

XIV əsrdə Çex krallığında hakimiyyət dəyişikliyi baş verdi. Çexlər özlərinə Lüksemburqlar sülaləsindən olan bir kral seçdilər və Lüksemburqlar sülaləsindən olan IV Karl hakimiyyətə gəldi (1).

Karl, 14 may 1316-cı ildə Praqada Çex kralının ailəsində dünyaya göz açmışdı. Anadan olarkən ona Vatslav (çex. *Václav)* adı verilmişdi. Karl adını isə ona 1323-cü ildə müqəddəs Troitsa günü *(Xristian aləmində Pasxa bayramının ilk günü hesab olunur)* Fransa kralı IV Karl şəxsən özü vermişdi (4). Karlın atası Yan (çex. *Jan Lucemburský*) Lüksemburqlar sülaləsindən olan VII Henrinin yeganə oğlu idi. Karlın anası Elişka Prşemıslovna (çex. *Eliška Přemyslovna)* Çex və Polşa kralı II Vatslavın qızı Prşemıslovlar sülaləsinin Çexiya taxtında olan son nümayəndəsi idi. Deməli, IV Karl həm formal olaraq Qərbi Avropa sülaləsini, həm də yerli sülaləni təmsil edirdi. Karl ailənin böyük övladı idi. Atasının Fransaya olan rəğbətindən onu altı yaşında olarkən təhsil almaq üçün Fransaya göndərmişdilər. Karlın Fransaya göndərilməsi də təsadüfi deyildi, çünki bu dövrdə Avropada ən güclü dövlət Fransa hesab olunurdu. Karlın tərbiyəçisi və müəllimi, gələcəkdə (1342-1352-ci illərdə) Roma Papası olacaq, VI Kliment (1291-1352) olmuşdur. VI Klimentin özünün ən çox maraq göstərdiyi bilik sahəsi tarix və incəsənət idi. Məhz elə müəllimindən gələn bu xüsusiyyətlər də sevimli tələbəyə ötürülmüş, Karlın hakimiyyət illərində özünəməxsus izlər buraxmışdı. Artıq Karlın 15 yaşı olanda atası onun dövlət işlərindən məlumatlı və idarə etmək qabiliyyəti olduğunu anlamışdı. Beləliklə, atası onu Avropanın mərkəzində yerləşən Lüksemburq qubernatoru təyin etdi. Lakin Karl bu fikirlə razılaşmaq istəmirdi (5).

Yan Lüksemburqlu hakimiyyət illərinin sonuna yaxın dövrlərdə, demək olar ki, Çexiya ilə maraqlanmır, bu ərazilərə gəlir mənbəyi kimi baxırdı. Bu münasibətlərin sonu da elə krallığın günbəgün zəifləməsinə gətirib çıxarırdı. 1333-cü ildə Moraviya (çex. *Morava)* və Çexiya krallığını idarə etmək Karla tapşırıldı. Yaşının az olmasına baxmayaraq, o, ictimai-siyasi sahələrdə kifayət qədər biliyə malik idi. Atasından fərqli olaraq, o, ölkəsinin ictimai-sosial mühitinə, adət-ənənəsinə daha yaxşı bələd idi. Sadalanan xüsusiyyətlər və nəcib xasiyyətinə görə, o, xalq tərəfindən də böyük rəğbətlə qarşılanırdı. Karl daim ölkənin daxilinə səfərlər edir və idarəetmədəki nöqsanları axtarıb-tapmağa, onları düzəltməyə çalışırdı. O. ölkədə kənd təsərrüfatına, balıqçılıq *(vətəgələrdə çex sazanı yetişdirilirdi)* və şərabçılıq sahəsinə xüsusi diqqət ayırmışdı. Xalqın yaddaşında Karl ən qüdrətli Çex hakimi kimi qalmışdı, hətta onu latın dilində «vətənin atası» mənasını verən bir adla da çağırırdılar (4).

Bu siyasi gedişlərin içərisində IV Karl özünün irsi mülkiyyəti olan Çexiyanı heç vaxt unutmur, hər daim onun inkişafına çalışırdı. IV Karlın özünün də qeyd etdiyi kimi, balaca Çexiya böyük imperiya içərisində itib-batmırdı. Tam əksinə, imperiyanın mərkəzinə çevrilməyə başlayırdı. Xalq arasında sevilməsinə baxmayaraq, Karl zadəganlar tərəfindən bir o qədər də müsbət qarşılanmırdı. Onlar Karla böhtan atmağa çalışırdılar. Karlı sevməyənlər onun hiyləgər və yalnız atasının taxtında gözü olduğunu deyirdilər. Bu

fikirlərin təsirindən qəzəblənən Yan Lüksemburqlu oğlunu 1335-ci ildə Çex krallığındakı hakimiyyətindən məhrum etdi. Onu yalnız Moraviyanın markqrafı *(orta əsrlərdə Qərbi Avropada vəzifə)* təyin etməklə kifayətləndi. Bundan qəzəblənən Karl kiçik qardaşı İohan Henrinin yanına Tirola *(Avstryanın qərbində əyalət)* yollandı.

Çexiyadakı bütün gəlirlərindən məhrum olan Karl qardaşının yanında yaşamağa başladı, onun arvadı isə Brnoya göndərildi.

Yan Lüksemburqlu Çexiyaya əvvəlki idarə üsulunu qaytardı. Bu idarə üsulu vasitəsi ilə kral əmlakı üçün xalqdan çoxlu vergi və pul yığılırdı. Mövcud vəziyyətdən əhali çox narahat idi. Bununla bağlı Çexiyada kiçik iğtişaşlar baş verirdi. Xalq hakimiyyətə yenidən Karlın gəlməsini tələb edirdi. Yaranmış bu vəziyyətlə, könülsüz də olsa, razılaşmağa məcbur olan Yan Lüksemburqlu oğlunu yenidən Çexiya idarəçiliyinə qaytarmalı oldu. Demək olar ki, elə bununla da Çexiyanın qızıl dövrünün tarixi başlanğıcı qoyuldu. Düzdür, Karl Çexiya idarəçiliyinə qayıdarkən müəyyən məbləğdə atasına pul göndərmək üçün razılaşmışdı. Lakin o, toplanan pulun bir hissəsini atası üçün göndərir, qalan hissəsini isə Çexiyanın abadlığı və rifahı üçün ayırırdı. Elə ona görə də Çexiyanın «qızıl əsr» dövrü məhz Karl Lüksemburqlunun adı ilə birgə çəkilir (1).

Latınca, fransızca, almanca, italyanca, çexcə yaxşı bilən Karl, dövrünün ən savadlı şəxslərindən biri hesab olunurdu. Başda humanist Françesko Petrarka (1304-1374) olmaqla, o da bütün sənətkar və incəsənət nümayəndələrinin bir hamisi sayılırdı. IV Karlın özü də orta əsrlər Avropasında ilk avtobioqrafik əsərin müəllifi kimi tanınırdı. Bu əsərin adı «IV Karlın həyatı» adlanırdı. O, bu əsərdə özünü savadlı, cəsur, dövlət işlərinin mükəmməl bilicisi kimi qələmə verirdi. Lakin əsərin özünəməxsusluğu ondan ibarət idi ki, burada müəllif özünün ruh narahatlığına daha çox yer ayırmışdı. Əsərdə o, dinə olan xüsusi inam və marağını, dinlə bağlı fikirlərini daha geniş şəkildə izah etməyə çalışırdı. Onun qələmə aldığı tərcümeyi-hal səpgili bu əsərində daha çox insan mənəviyyatı və ruhu ilə bağlı olan məsələlərə yer ayrılmışdı. Bu xüsusiyyətlər isə artıq özü-özlüyündə müəllifin nə qədər humanist bir ideyalara sahib olduğunu göstərirdi (1).

Karlın idarəçiliyi və dövlət işlərini mükəmməl bilməsi hər daim onun köməyinə çatmışdı. Bu məsələ onu kral seçiminə aparan yolda daim dadına yetmişdi. Məhz Müqəddəs Roma imperatoru IV Lüdovikin sağlığında Karl Roma papası VI Klimentin köməyi ilə özünə gələcəkdə imperator seçilmək hüququ verən V Alman şahzadəsi (alm. *Kurfürst* - şahzadələrin din xadimlərinin razılığı ilə gələcəkdə imperator seçilmək hüququdur) seçilməsinə nail olmuşdur. Bu seçim gələcəkdə ona Almaniya və Çexiyanın kralı olmasına hüquqi imkan verirdi. Bunun qarşılığında isə o, bir neçə şərtlər qəbul etmiş və həmin şərtlərin icrasına dair Avinyonda Papa qarşısında and içməyə məcbur olmuşdu. 1347-ci ildə, kralın ölümünə baxmayaraq, Karl imperiya taxtına sahib ola bilmədi. Çünki Vittelsbaxların təşəbbüsü ilə kral III Eduard seçildi. III Eduard da bu tituldan imtina edərkən növbədə digər Maysen markqrafı II Fridrix var idi, daha sonra isə Hünter fon Şvarsburq gəlirdi. Hansı ki, o da pul müqabilində taxtdan imtina etdi və tezliklə də öldü. Rəqiblərinin ard-arda tezliklə sıradan çıxmasından sonra növbə IV Karla çatdı. 1349-cu il iyulun 25-də Karl yenidən kral taxtına əyləşdi. IV Karl Vittelsbax sülaləsi ilə də nikah diplomatiyasından istifadə edərək münasibətləri yumşaltmağı bacardı.

Kral seçildikdən sonra o, yerli idarəçiliyə çox böyük güzəştlər etməyə başladı. Ümumən, Avropa monarxları arasında böyük nüfuza sahib idi. Maraqlısı isə bu idi ki, Karl belə münasibətin formalaşmasını müharibələrlə yox məhz sülh yolu ilə bacarmışdı. Bunun ən parlaq nümunəsi kimi IV Karlın 1356-cı ildə Müqəddəs Roma imperiyası daxilində «Qızıl bill» adlı qanunvericilik aktının imperiya reyxstaqı tərəfindən qəbul edilməsi olmuşdu. Latınca «Bulla Aurea» adlanan bu sənəd yerli idarəçiliyə müstəsna hüquqlar verirdi. Bu qanun aktı IV Karlın hakimiyyətini Çex torpaqlarında daha da gücləndirdi. 1806-cı ildə Müqəddəs Roma imperiyasının süqutu ilə bu qanun aktı qüvvədən düşdü. Lakin bu qanun aktı imperiya daxilində siyasi dağınıqlığa səbəb oldu. «Qızıl bill» şahzadələrə öz yerli hakimiyyətlərində tam suverenlik hüququ verdi. Feodallar arasında müharibələr sanki qanuniləşdi, həmçinin şəhərlərin birləşməsinin qarşısı alındı. Bu qanun Almaniya kralı (imperatoru) tərəfindən seçilmiş yeddi şahzadə (Mayn, Trir, Köln, Çexiya, Reyn, Saksoniya və Branderburq hersoqluğu) tərəfindən tənzimlənirdi. Reyxstaqda aparıcı rola Mayn arxiyepiskopu malik idi. Bu sənədlə, həmçinin şahzadələr öz adlarına limitsiz pul kəsdirə bilərdi. Bundan savayı, dini gəlirlərin onda bir hissəsinin papaya verilməsi ilə də Papa ilə olan münaqişə həll edilmiş oldu. Həmçinin Avinyon məhkəməsində nifaqa səbəb olan Papanın seçkiyə müdaxiləsini aradan qaldırmaqla IV Karl kral taxtına seçkiləri sadələşdirmiş oldu (5).

IV Karlın hər daim ümdə bir istəyi Romada tac qoyma mərasimini keçirmək idi. Bu fikir ilk dəfə papa VI Klimentin ağlına gəlmişdi. Niyə də Karl Müqəddəs Roma imperatoru olmasın? O, öz bacarıqlı və ağıllı şagirdini yaddan çıxarmamışdı. Papa ilə yanaşı, Bavariya, Maysen, Vittelsbax hersoqları da imperiya taxtına gedən yolda IV Karlın namizədliyini dəstəkləyirdilər. Onlar Karldan müəyyən imtiyaz almağı gözləyirdilər.

Və sonra da təzə taxta oturmuş imperatordan dərhal öz imtiyazlarını tələb etdilər. Karl da öz növbəsində ruhanilərə və yerli idarəçilərə xüsusi güzəştlər etdi.

Tac qoyma mərasimini həyata keçirmək üçün o, İtaliyaya iki dəfə səfər etmişdi. Birinci səfər 1354-cü ildə, ikinci səfər isə Roma papasının şəxsi maraqları çərçivəsində olmuşdu. İkinci səfər dövründə artıq Karlın rəqibləri çoxalmışdı. Bu rəqiblərdən ən yadda qalanı Karl tərəfindən Avinyona məhbus kimi göndərilən Nikola di Lorenso Qabrini (1313-1354) oldu. Qabrini papa VI İnnokenti (1282-1362) ilə münasibətləri mülayimləşdirərək 1353-cü ildə onun (papanın) bir nümayəndəsi kimi İtaliyaya qayıtdı. Onun fikri ispan kardinallarından kömək alıb İtaliyada hakimiyyəti ələ keçirmək idi. Lakin o, 1354-cü ildə 8 oktyabr tarixində Roma Kapitolisinin pilləkənlərində öldürüldü. Bu hadisəni orta əsr ingilis tarixçisi və yazıçısı Eduard Qibbon (1737-1794) belə qələmə almışdı: «IV Karl İtaliyanın və imperiyanın tacını qoymaq üçün Alp dağlarından enəndə artıq Kapitoli Lorensonun qanına bürünmüşdü».

IV Karl 1355-ci ildə Pasxa günündə Romada tac qoyma mərasimini keçirib, öz sevimli diyarı olan Praqaya qayıtdı. Bunu İtaliya intibahının görkəmli nümayəndəsi, şair Françesko Petrarka belə təsvir etmişdi: «Karl tacla geri qayıtdı. Məhz o tacla ki, bir qılınc vuruşu olmadan belə, boş gətirilmiş pulla dolu bir çanta ilə qazanılmışdı. Ah, Karl! Baban və əcdadların səni Alp dağlarının keçidində görsəydilər nə deyərdilər, nə fikirləşərdilər?». Françesko Petrarkanın IV Karla münasibəti birmənalı olmamışdır. Çox güman ki, buna səbəb şairin imperiyanın paytaxtının Praqa yox, məhz Romaya köçürülməsini dəfələrlə istəməsi, lakin Karlın vətənə olan sevgisindən bu fikirləri yaxına buraxmaması olmuşdur (5).

IV Karl 1378-ci ildə Praqada - öz sevimli şəhərində dünyasını dəyişdi (2). O, özündən sonra bütöv bir Müqəddəs Roma imperiyası qoyub getdi. Hansı ki, müharibələr baş vermir, əksinə günbəgün inkişaf edən imperiyanın ən vacib bölgələrindən birini Çexiya tutmağa başlayırdı.

Göründüyü kimi, IV Karl çex xalqının tarixində misilsiz işlərə imza atmışdı. IV Karl tarixi və mədəni faktları əks etdirən salnamələrin - hadisələrin tarixi ardıcıllıqla yazılışına hədsiz dərəcədə diqqət ayırırdı. O, salnamələri sifariş verir, hətta özü bu salnamələri oxuyur və bəzi düzəlişlər edirdi. Buna görə də onun hakimiyyət illərində çex və xarici müəlliflər tərəfindən yazılan çex salnamələri sürətlə artmağa başladı. Bəs bu salnamələrin yazılmasında əsas məqsəd nə idi? Əsas məqsəd o idi ki, bu tarixi əsərlər yazılan zaman çex xalqının tarixi dünya tarixinə qovuşur, ölkə-ölkə, diyar-diyar yayılan bu tarixi əsərlər müxtəlif kitabxanaların fondlarını zənginləşdirməklə çex xalqının tarixini dünyaya yayırdı. Çex xalqı haqqında çox sayda tarixi əsərlərin yazılmasına baxmayaraq, IV Karlın ən çox xoşladığı əsərlər çex xalqının formalaşma tarixini izah edən əfsanə və mifologiyalar haqqında salnamələr idi. Bu salnamələrdə çexlər özlərini xristianlığın müqəddəs kitabında və antik deyimlərdə adı keçən ən qədim xalqın varisləri elan etmişdilər. Salnamələrdə qeyd olunurdu ki, çex patriarxı öz xalqı ilə birlikdə Xorvatiyadan qaçan məşhur əyan olmuşdur. Onun özündən kiçik qardaşları - Lex və Rus polyak və rusların əcdadları olmuşlar. Beləliklə, salnamələrə əsasən, çexlər slavyanların «böyük qardaşları» hesab olunur. Salnamələrdə, həmçinin çexlər «günəş xalqı» adlandırılmışdı. Ona görə də bu dövrün təsviri incəsənətində çox sayda günəş simvolları əks olunub (1).

Başqa bir salnamədə isə çexlər Allah tərəfindən seçilmiş xalq kimi göstərilmişdi. Orta əsrlərdə bu nəzəriyyənin əsaslandırılmış cavabı da var idi. Latın dilində çexlər «bohemiyalılar» adlanırdı. Latın dilində *Boiohaemum, Bohemia* – «Boii»lərin (yəni öküzə və ya buğaya bənzər insanların) vətəni mənasını verir. Belə ki, slavyanların bu ərazilərə gəlməsindən öncə, bu torpaqlarda döyüşçü kelt tayfası olan «Boii»lər məskunlaşmışdı. Əlbəttə, salnamələrdə əks olunan bu fikirlər, bütövlükdə mifologiya ilə bağlı olub, çex hökmranlığının o dövrkü hegemonluğunu əks etdirirdi (1).

Sadalanan faktlar, tarixi hadisələr aydın şəkildə IV Karlı Çexiya üçün sanki müqəddəs bir şəxs kimi təqdim edir.

Məlumdur ki, Praqa IV Karlın hakimiyyət illərində Müqəddəs Roma imperiyasının mərkəzi idi. Ölkəni əhatə edən dağlarda yeni mis, qalay, dəmir yataqları tapılmışdı. Ölkə gümüş çıxarılması sahəsində Avropada birinci sırada idi (o zaman Avropada pullar gümüşdən kəsilirdi). Praqadakı bir çox tikililərin tarixçəsi məhz IV Karlın hakimiyyəti dövrünə təsadüf edir. O, Fransa və İtaliya şəhərlərində sezdiyi təntənəli və möhtəşəm gözəlliyi öz sevimli Praqasında da görmək arzusunda idi. Ona görə də Praqaya İtaliya və Fransadan heykəltəraşlar, daşyonanlar, ustalar çağırılmışdı. O, sanki Praqanın Müqəddəs Roma imperiyasının siyasi mərkəzinə layiq olmasına çalışırdı. Praqa öz gözəlliyi və sərvəti ilə bütün şəhərlərdən seçilməli, yaddaqalan bir görkəmə sahib olmalı idi. Hazırda dünyanın ən məşhur universitetlərindən olan Karl Universitetinin, Vltava çayı üzərindəki Karl körpüsünün (çex. *Karlův most*), «Köhnə şəhər»in (çex. *Staré Město*), «Yeni şəhər»in (çex. *Vyšehrad*), Müqəddəs Vit kilsəsinin (çex. *Kostel svatého Víta*) və bir çox tikililərin əsası IV Karlın hakimiyyəti dövründə qoyulub (3).

Beləliklə, göründüyü kimi, IV Karl adını çex tarixinə misilsiz şəxsiyyət kimi yazdırmağı bacarmışdır. Onun hakimiyyəti Çexiya üçün iqtisadi, sosial və mədəni tərəqqi dövrü olmuşdur. Hətta burjuaziya dövrünün çex tarixçiləri belə Karlı son dərəcə ideal şəxsiyyət kimi qələmə verir və bu dövrü «qızıl əsr» adlandırırdılar. Əslində, IV Karl hakimiyyətinin uğuru ondan ibarət idi ki, o, bir çox sosial-iqtisadi dəyişikliklər edib, Praqanı imperiya mərkəzinə çevirə bildi. Lakin iri feodalların hüquqlarını məhdudlaşdırmağa cəhd göstərsə də, bu sahədə böyük uğur qazana bilmədi. O, məhz bu səbəbdən, sonradan yerli feodallara hədsiz imkanlar vermişdi. Lakin imperatorluğun parlaq simasının arxasında, elə parlaqlığı qədər, dərin böhranlar baş verirdi. Heç şübhəsiz ki, elə bu böhranlar, IV Karlın ölümündən sonra, Qusçular hərəkatına (1419-1434) zəmin yaratdı.

## Ədəbiyyat:

1. Мельников Г.П. Культура зарубежных славянских народов. Москва: Интерпракс, 1994, 206 с.
2. Petr Kučera. Charles IV and Prague – 700 years. Prague 2016. http://www.prague.eu/file/edee/universal/maps/karel_iv_brozura_en.pdf
3. http://www.prague.eu/ru/articles/3-14-12543
4. http://prahafx.ru/sacred/mystic/mystic8.htm
5. http://hrono.ru/biograf/bio_k/karl4lux.php

## The golden period of the Czech lands - power of Charles IV

**Summary**

In this article, we study the transformation of the Czech kingdom into the center of the empire and the beginning of the Renaissance during the reign of Charles IV (1346-1378). Together with the beginning of the period of peace and tranquility, Karl (1316-1378) achieved economic and cultural growth and development in the Czech Kingdom. The acquisition of land by IV Charles also expanded the territory of the Czech kingdom, closing marriages beneficial to her children. Charles IV was also responsible for the development of crafts, culture and trade. During his reign, the economy and culture of the country lived in an era of recovery.

## Золотой период чешских земель - власть Карла IV

**Резюме**

В представленной статье изучается превращение Чешского королевства в центр империи и начало эпохи Возрождения во времена правления Карла IV (1346-1378). Вместе с началом периода мира и спокойствия Карл (1316-1378) достиг экономического и культурного роста и развития в Чешском королевстве. Приобретение земли IV Карлом также расширило территорию Чешского королевства, закрыв браки, выгодные ее детям. Карл IV также отвечал за развитие ремесел, культуры и торговли. Во время его правления экономика и культура страны жили в эпоху восстановления.

**Rəyçi: prof. Ə.M.Tağıyev**